**27.12.2021: xəbər**

**Khazar University Hosted 50th Graduation Events**

On December 24-25, 2021, the 50th graduation event was held at the Fikret Amirov Conference and Concert Center of the University. The event was attended by university administration and staff members, students and guests.

The events began with the performance of the National Anthem of the Republic of Azerbaijan by the Chamber Orchestra of Khazar University.

Speaking at the event, Khazar UniversityRector Associate Professor Irada Khalilova congratulated the graduates and wished them success in their independent lives.

Diplomas were presented to bachelors of the School of Sciences and Engineering, School of Humanities, Education and Social Sciences on December 24, graduates of the Graduate School of Sciences, Arts and Technology, and bachelors of the School of Economics and Management. Diplomas were presented to the graduates by the university administration, deans and heads of departments, teachers. Students took the Khazar University oath and photos.

On behalf of former Khazar University alumni, Khumar Huseynova, a lecturer at the university and head of the Financial Literacy Department of the Central Bank of the Republic of Azerbaijan, thanked the university's management and faculty for their role in training highly qualified personnel.

Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, spoke at the event, looked at the university's glorious path and success, and gave recommendations to graduates to succeed in their fields of work.

The graduation ceremony was accompanied by a concert by the university's Chamber Orchestra and the student dance troupe.


2021
Khazar
University
50th
Degree
Recognition
Ceremony


Khazar
MƏZUN
2021
GRADUATION


Khazar
2021
GRADUATION






















Khazar



**Xəzər Universitetində 50-ci məzunluq tədbirləri keçirildi**

2021-ci il dekabrın 24-25-də universitetin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində 50-ci məzunluq tədbirləri keçirildi. Tədbirlərdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr, qonaqlar iştirak edirdilər.

Tədbirlər Xəzər Universitetinin Kamera orkestri tərəfindən Azərbaycan Respublikası Dövlət Himninin ifası ilə başlandı.

Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova tədbirlərdə çıxış edərək, məzunları universiteti bitirmələri münasibətilə təbrik etdi, müstəqil həyat yollarında onlara uğurlar arzuladı.

Dekabrın 24-də Təbiət elmləri və mühəndislik fakültəsinin, Humanitar, təhsil və sosial elmlər fakültəsinin bakalavr məzunlarına, 25-də Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin məzunlarına, İqtisadiyyat və menecment fakültəsinin bakalavr məzunlarına diplomlar təqdim olundu. Diplomları məzunlara universitetin rəhbərliyi, dekanlar və departament müdirləri, müəllimlər təqdim

etdilər. Tələbələr Xəzər Universitetinin andını səsləndirdilər, xatirə şəkilləri çəkdirdilər.

Xəzər Universitetinin öncəki məzunları adından universitetin müəllimi, Azərbaycan Respublikasının Mərkəzi Bankının Maliyyə Savadlılığı Şöbəsinin rəisi Xumar Hüseynova çıxışında universitetin yüksək ixtisaslı kadrlar yetişdirilməsi sahəsindəki xidmətlərinə görə rəhbərliyə, professor - müəllim heyətinə təşəkkürünü bildirdi.

Tədbirlərdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış etdi, universitetin keçdiyi şərəfli yola və uğurlarına nəzər saldı, məzunlara çalışacaqları sahələrdə müvəffəqiyyət qazanmaq üçün tövsiyələrini verdi.

Məzunluq tədbirləri universitetin Kamera orkestri və tələbələrdən ibarət rəqs kollektivinin konserti ilə müşayiət olundu.